**Şərtlər**

**Bankın "2026-cı ilin avqust ayında Xoş gəldin keşbeki" təşviqedici aksiyasının keçirilməsi qaydaları**
*(bundan sonra – Şərtlər)*

---

## 1. Əsas müddəalar

**1.1.** Bu Şərtlər UNİBANK Kommersiya Bankı ASC (bundan sonra – Bank) tərəfindən Bankın cari müştəriləri, Bank tərəfindən emissiya olunmuş kart sahibləri arasında keçirilən təşviqedici marketinq aksiyasını tənzimləyir.

**1.2.** Bu Şərtlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə, Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ aktlarına və Bankın daxili normativ sənədlərinə uyğun hazırlanmışdır.

**1.3.** Aksiya lotereya hesab edilmir.

**1.4.** Aksiyada iştirak etməklə müştəri bu Şərtlər ilə tanış olduğunu, iştirak şərtlərini qəbul etdiyini və onlara əməl etməyi öhdəsinə götürdüyünü təsdiq edir.

**1.5.** Bu Şərtlər aşağıdakı əsas anlayışlar istifadə olunur:

- **"2026-cı ilin avqust ayında xoş gəldin cashback" aksiyası** – Bank tərəfindən emissiya olunmuş kartların təşviqi məqsədilə müştərilərin kartlar vasitəsilə xərcləmə əməliyyatlarına stimullaşdırılması üçün keçirilən marketinq tədbiri.
- **Bank (Aksiyanın təşkilatçısı)** – UNIBANK Kommersiya Bankı ASC. Bank fəaliyyəti üçün lisenziya: 8 yanvar 2003-cü il, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmişdir. Hüquqi ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi 55.
- **Bankın rəsmi saytı (Sayt)** – https://unibank.az
- **Bank kartı (Kart)** —aksiya müddətində Bank tərəfindən emissiya olunmuş UCard kredit kartı.
- **Aksiyanın ümumi müddəti** – 01.08.2026-31.10.2026 tarixləri (mükafatın hesablanması və ödənilməsi daxil olmaqla).
- **Hesabat dövrü** – 01.08.2026-31.10.2026 tarixləri.
- **Əsas cashback** – Saytda göstərilən qaydalara uyğun hesablanan cashback.
- **"Xoş gəldin" keşbeki**– bu Şərtlərin 4-cü bölməsinə uyğun olaraq hesablanan cashback.
- **Ticarət-xidmət müəssisəsi (TXM)** – kart vasitəsilə ödəniş edilə bilən mal və xidmət təqdim edən təşkilat və ya fərdi sahibkar.
- **POS dövriyyə** – satış nöqtələrində (POS terminallarında) kart vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin ümumi həcmi.

- **Aksiya iştirakçısı** – –aksiya müddətində yeni UCard kredit kartı əldə etmiş və bu Şərtlərə uyğun olaraq aksiyada iştirak edən müştəri

---

**2. Aksiyanın şərtləri**

**2.1.** Aksiya Azərbaycan Respublikasının bütün ərazisində açıq oferta əsasında keçirilir.

**2.2.** Hər iştirakçı aksiyada yalnız 1 kartla 1 dəfə iştirak edə bilər.

**2.3.** Aşağıdakı şəxslər iştirak edə bilməz:

- Azərbaycan Respublikasının vergi rezidenti olmayan şəxslər;
- Müddəti keçmiş borcu olan müştərilər;
- Bloklanmış kart sahibləri;
- Etibarsız şəxsiyyət vəsiqəsi olan müştərilər.

**2.4.** 3.1-ci bənddə göstərilən əməliyyatların yerinə yetirilməsi "xoş gəldin" keşbeki alınması üçün vacib şərtdir.

**2.5.** Ödəniş əməliyyatları Bankın tariflərinə uyğun aparılır.

**2.6.** Bank özündən asılı olmayan səbəblərə görə şərtlərin pozulmasına görə məsuliyyət daşımır.

**2.7.** Fırıldaqçılıq hallarında Bank "xoş gəldin"keşbekin ödənişindən imtina edə bilər.

**2.8.** Bank şərtlərə birtərəfli dəyişiklik etmək hüququnu özündə saxlayır.

**2.9.** Mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həll edilir.

---

**3. Aksiya mexanikası**

**3.1.** "Xoş gəldin" keşbeki almaq üçün iştirakçı hər biri 50 AZN və ya daha çox məbləğdə POS və ya E-commerce əməliyyatı etdikdə hər əməliyyata görə 5 AZN cashback qazanır. Hər bir əməliyyatın məbləği ayrıca minimum 50 AZN olmalıdır. Bir neçə əməliyyatın məbləği cəmlənərək cashback hesablanması üçün əsas götürülmür. Bir əməliyyat üzrə hesablanan cashback məbləği əməliyyatın məbləğindən asılı olaraq artmır. Məsələn, 50 AZN, 100 AZN və ya 500 AZN məbləğində həyata keçirilmiş uyğun bir əməliyyat üzrə iştirakçı 5 AZN cashback qazanır.

Aşağıdakı əməliyyatlar nəzərə alınmır:

- Nağd pul çıxarışı (MCC 6011, 6010)
- Kvazi-keş əməliyyatları (MCC 6051)
- Kredit ödənişləri (MCC 6012)

- Hissə-hissə ödənişlər (BNPL)
- Depozitin artırılması (MCC 6012)
- “Topla” məhsulunun yaradılması (MCC 6012)
- Kartdan karta köçürmələr (P2P, MCC 6536, 6538, 4829)
- Pul köçürmə sistemləri (Granat, Zolotaya Korona, Western Union, MCC 4829)
- Dövlət ödənişləri və cərimələr (MCC 9311)
- ASAN xidmət ödənişləri (MCC 9399, 9311);
- YAŞAT Fondu ödənişləri (MCC 8398);
- Hüquqi xidmətlər (MCC 8111)
- Broker xidmətləri (MCC 6211)
- Bukmeker və lotereya əməliyyatları (MCC 7995)
- Tanışlıq xidmətləri (MCC 7273)
- Geri qaytarılmış əməliyyatlar

---

**4. Mükafatın hesablanması**

**4.1.** 3.1-ci bəndin yerinə yetirilməsi mükafat üçün əsas şərtdir.

**4.2.** Şərtlər yerinə yetirildikdə iştirakçı **5 AZN cashback** qazanır.

**4.3.** Maksimum mükafat – **25 AZN**.

**4.4.** Bu məbləğ əsas cashback-dən əlavədir.

**4.5.** Əsas cashback limitinə daxil edilmir.

**4.6.** Mükafat manatla cashback hesabına köçürülür.

**4.7.** Qaytarılan əməliyyatlar üzrə mükafat ödənilmir (və ya geri tutulur).

**4.8.** Mükafat ən gec **31.10.2026** tarixinədək hesablanır.